Bəşirqızı Z. Vətən müharibəsinin yeganə şəhid qadını // Xalq qəzeti. - 2023. - 8 mart. - № 52. - S. 8.

Arəstə Baxışova 2018–2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Baş Hərbi Hospitalında tibbi statist, 2019-cu il iyulun 12-dən isə Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə operator olub.

Azərbaycan Ordusunun çavuşu olan hərbi feldşer Arəstə Baxışova Vətən müharibəsi zamanı Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçilərə döyüş meydanında tibbi yardım göstərib. O, oktyabrın 23-də Qubadlı döyüşləri zamanı yaralı zabiti döyüş meydanından çıxararkən şəhid olub. Biləcəri qəsəbəsinin Şəhidlər Xiyabanında dəfn olunub. Ölümündən sonra "Vətən uğrunda" medalı və Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən ingilis tibb bacısı Florens Naytingelin şərəfinə təsis olunan "Florence Nightingale" medalı ilə təltif edilib.

Gənc ananın Mərdan adında oğlu və Zəhra adında qızı yadigar qalıb. Vətən müharibəsinin yeganə qadın şəhidi Arəstə Baxışovanın oğlu şəhid övladları uçün təşkil edilən "Qaliblər düşərgəsi"nin 14 günlük iştirakçısı olub. Qəhrəman xanımın oğlu olduğuna görə fəxr edir: "Anamı çox sevirdim. O bizi ana sevgisi ilə böyüdürdü. Anamın şəhadətindən üzülsək də, xəbəri qürurla qarşıladıq. Çünki şəhidlər ölmür, onlar hər zaman bizim qəlbimizdə yaşayacaq. Allah bütün şəhidlərə rəhmət eləsin!" – deyir Mərdan.

Anası ilə son görüşlərini belə xatırlayır: "Müharibəyə gedəndə bacımla mənə "İşə gedirəm, şənbə günü geri qayıdacağam" – dedi. Onunla görüşüb, riyaziyyatdan hazırlığa getdim. Anam məndən iki saat sonra evdən çıxıb".

"Bəlkə də mən sağ qayıtdım. Amma bu, döyüşdür, nəticəsi bilinməz. Uşaqlarım sənə əmanət". Bu, iki ciyərparəsini anasına əmanət edərək, canından çox sevdiyi Vətənin azadlıq savaşına qalxıb döyüşə atılan Arəstə Baxışovanın son sözləridir.

Mərdanın arzusu hərbçi olmaqdır. Anasının Vətənə bağlılığı, yurd sevgisi onda bu istəyi yaradıb. Arzuların çin olsun, Mərdan bala. Vətən bir də bacın ananın sənə əmanətidir!